SOCIAL
PARADIGM
AN INTERNATIONAL JOURNAL OF SOCIAL SCIENCES

*Social Paradigm, 2021 4 (1): 8-11*

# Parallels in the Tragedy of M. Auezov and L. Sobolev "Abay" with the Drama of S. Vurgun "Vagif"

*Nizami Məmmədov Tağısoy* [1]

*In the presented material in a comparative-comparative plan, the thematic-substantial and genre-compositional features of the drama of the Azerbaijani poet Samad Vurgun "Vagif" and the Kazakh and Russian writers Mukhtar Auezov and Leonid Sobolev of the tragedy "Abai" are studied. (Note that L. Sobolev is presented here with the aim that M. Auezov could avoid persecution). Both artists of the word M. Auezov (1897 - 1961) and S. Vurgun (1906 - 1956) lived and worked in almost the same historical era. The protagonists of their works were rebellious poets. One of them - Vagif lived in the 18th century. (1717 - 1797), and Abai in the second half of the XIX - early XX centuries. (1845 - 1904). Each of them played an extremely important role in the history and culture of their people. Vagif, being a poet, was at the same time the vizier of the Karabakh khanate, who fought to preserve the integrity of this khanate. In addition, Vagif was also a great educator, striving for the purity and development of the Azerbaijani literary language. Abai, as a teacher, educator and poet, also played an outstanding role in the struggle for popular ideals, for the establishment of the Kazakh literary language and for the development of a democratic wing and views on native literature. He, with his versatile creativity, took a new look at the personality, at the socio-political, cultural and literary issues of his native Kazakh people, developed in his work the realistic direction of art. Based on the responsibilities and tasks assigned to them by fate, each of the authors, S. Vurgun and M. Auezov (since L. Sobolev, as a representative of Russian literature, was just a cover for M. Auezov. All his life he was persecuted by the authorities for his freedom-loving and democratic views. For many years he was under disgrace, spent a year and a half in prison, miraculously escaped repression and execution. After all, in the terrible Soviet years, the cream of Kazakh literature, who lived and worked in the name of his native culture, were repressed or shot) intended to fulfill their mission before the fighters of folk culture. Proceeding from these goals, introducing their readers and viewers, S. Vurgun with Vagif, M. Auezov with Abai, managed to present these images in all their glory, in contradiction with the existing reality, with a very complex and ambiguous era. The main characters of each of these plays are closely connected with the society around them, Abai - with the Kazakh, Vagif - with the Azerbaijani national environment. In each of these plays there are two camps: images of positive and negative characters, opposing all innovations that could serve the national interests. Let us note how exceptional important artistic examples, the drama of S. Vurgun "Vagif" and the tragedy of M. Auezov and L. Sobolev "Abai" played an invaluable role in the development of national drama and theater.*

***Keywords:*** *Azerbaijani and Kazakh literature, Russia, tragedy.*

---

[1] Baku Slavic University, nizami.mamedov@mail.ru

Parallels in the Tragedy of M. Auezov and L. Sobolev "Abay" with the Drama of S. Vurgun "Vagif"

***Received/Makale Geliş Tarihi: 2.02.2021***
***Accepted/Makale Kabul Tarihi: 10.03.2021***

**Giriş**

M.Auezov və L.Sobolevin“Abay” faciəsinin xüsusiyyətləri ilə tanış olarkən görürük ki, onlar üçün XIX əsrin böyük mütəfəkkinin yaşadığı dövrün mühüm əlamətlərini dərindən öyrənib, xalqa çatdırmaq başlıca məsələ idi. Eyni zamanda “Abay” faciəsinin materialı ilə tanış olarkən biz burada bu əsərin Səməd Vurğunun “Vaqif” dramı ilə səsləşən xeyli tərəflərini də görə bilirik. “Abay” M.Auezovun düşüncəsində, qazax xalqının tarixi taleyində mühüm yer tutduğu kimi, Vaqif də Azərbaycanın tarixi taleyində və Səməd Vurğunun yaradıcılığında möhtəşəm mövqedə dayanırdı. M.Auezov “Abay” dramı ilə Abay obrazı və şəxsiyyəti üzərində işini bitməmiş hesab etdiyi kimi, S.Vurğun da hələ 1935-ci ildə “Şairin ölümü” adlı (Vaqifə həsr olunmuş) bir şeir (Vurğunun özü bu əsəri poema adlandırmışdı – N.T.) yazsa`da, bu nümunə onu qənaətləndirməmişdi. Vurğun burada Vaqifin taleyinin tragizmini açıb, onun xeyirxahlığını və vətənpərvərlik naturasının özünəməxsusluğunu göstərməyə çalışsa da, bunlar onu qane etməmişdi. Elə buna görə də o, 1937-ci ildə “Vaqif” qəhrəmanlıq dramını yazmaqla “xalqımızın keçmişindəki ən böyük insanlardan birini” (3) öz yaradıcılıq obyektinə çevirməyi qarşısına məqsəd qoymuşdu.

M.Auezov və L.Sobolevin də “Abay” faciəsində müəlliflərin başlıca vəzifəsi Abayın bir millət təəssübkeşi kimi qazax xalqının tarixində yerini və faciəsini göstərmək onlar üçün önəmli idi. “Abay” pyesində başlıca obraz Abay olduğu kimi və digər iştirakçı şəxslər əsərdə ona tabe, yaxud ondan asılı rol oynadlqları kimi, “Vaqif” dramında da əsərin bütün personajları bu və ya digər şəkildə Vaqifə bağlı, ondan asılı vəziyyətdə təsvir olunmuşlar. Hər iki əsərdə iştirak edən personajların hamısı bu və ya digər baxımdan feodal cəmiyyətində yer almış obrazlara bağlıdır. Belə mübarizədə bu şairlərin faciəvi və təkbətək döyüşü onlarla düşmən düşərgəsindəkilərlə konfliktin açılmasına kömək edir.

Söylədiklərimizlə yanaşı, M.Auezov və L.Sobolevin “Abay” faciəsi ilə S.Vurğunun “Vaqif” dramı arasında xeyli digər oxşarlıqlar, paralellər də ortaya çıxarmaq mümkündür. Belə ki, əgər “Vaqif” pyesində baş verən hadisələr XVIII əsrə təsadüf edib, həmin dövrdə İran işgalçıları Cənubi Qafqaz, xüsusi ilə Azərbaycan ərazilərini dağıdırdılarsa və Rusiya imperiyasının bütün düşüncəsi bizim torpaqları ələ keçirməklə bağlı idisə, “Abay” faciəsində isə hadisələr XIX əsri əhatə etməklə əslində qazax xalqının da düşdüyü vəziyyət, demək olar ki, bizdə mövcud olanla analoji idi. Abay və onun tərəfdarları, bir tərəfdən, xalqın gözünü açmaq, onun maarifə yönlənməsini nəzərdə tuturdularsa, digər tərəfdən, Abay və onun kimilərin fəaliyyətində imperiya təəssübkeşlərinə qarşı barışmaz mübarizə aparmaq gündəmdə idi.

Əgər “Vaqif” dramı Azərbaycan ədəbiyyatının klassiki Molla Pənah Vaqifin həyatına həsr olunmuş xalq qəhrəmanlıq pyesi idisə və Vaqif keçmiş dövr yazıçılarından S.Vurğuna daha yaxını idisə, “Abay” faciəsi də qazax ədəbiyyatının klassiki Abay Kunanbayevin həyatına həsr olunub, müəllif qarşısına onun əzablarını göstərməyi məqsəd qoymaqla, həm də Abayı Auezovun xalq təəssübünü çəkən ən sevimli və istəkli

yazıçılarından biri kimi ortaya çəkmək vacib idi. Əgər Səməd Vurğunla Vaqif Azərbaycanın eyni regionundan idilərsə, Abay da Auezovla Qazaxıstanın eyni regionundan olmaqla, həm də qohumluq telləri ilə bir-birinə bağlı idi. Eyni zamanda bu da vacibdir ki, hər iki klassikin həyatı baş qəhrəman kimi diqqət mərəkəzinə çəkilmiş xalqa bağlı olduğundan min bir məhrumiyyətlərə düçar olmuşdu. Nə Vaqif, nə də Abay xalqı düşündüklərindən xoşbəxt olmamışdılar. Elə buna görə də hər iki müəllif – həm S.Vurğun, həm də Auezov – öz pyeslərində məhz böyük xalq mücahidlərinin vətənpərvərlik keyfiyyətlərini ortaya qoymağa səy göstərmişdilər (4, s. 779).

Bunu da qeyd etmək lazımdır ki, hər iki pyesin baş qəhrəmanının xarakteristikası, həm də bu əsərlərin məzmununu dərindən dərk etməyə imkan verir. Hər iki müəllif (S.Vurğun və M.Auezov) öz sələflərinin yaradıcılığına, tarixdə onlarla bağlı olan məlumatlara, xalq arasında yer almış onlar haqqındakı xatirələrə, tarixi məlumatlara, folklor nümumlərinə söykənməklə Vaqifin və Abayın möhtəşəm vətənpərvərlik obrazını və aurasını yarada bilmişdir. Nəticədə S.Vurğunun "Vaqif"ində Vaqif, M.Auezov və L.Sobolevin "Abay"ında Abay yetərincə çoxtərəfli və əzəmətli alınmış, təsvir olunmuşlar.

Yeri gəlmişkən bildirək ki, məsələn, Vaqif rolunun möhtəşəm ifaçıları Ələskər Ələkbərov (1910 – 1963), Kazım Ziya (1896 – 1956), Ağadadaş Qurbanov (1911 – 1965) bu obraz üzərində işləyərkən onlardan hər biri ona öz orijinal traktovkalarını verməklə tamaşaçılara Vaqif obrazını sevdirməyi bacarmışdılarsa, Abay obrazını səhnədə yaratmış görkəmli qazax aktyorları Kalibəy Kuanışpayev (1893 – 1968) və Saken Aymanovun (1914 – 1970) da ifalarında Abay bir mədəniyyət xadimi kimi görümlü və diqqətçəkici alınmışdır.

Vaqif və Abay obrazları üzərində müşahidələrimizi davam etdirərkən həm də onu görə bilirik ki, dramaturqlardan hər biri əsərdə qələmə alınan tarixi mərhələnin özünəməxsus mənzərəsini ustalıqla yarada bilmişdir. Vaqif və Abay adlarını çəkdiyimiz əsərlərdə həm vətənpərvər-şair, həm dərin müşahidəli maarifçi, həm ictimai xadim, həm filosof, həm də əsil humanist kimi göstərilmişdir. Bununla belə, "Vaqif"ın müəllifi S.Vurğunla "Abay"ın müəllifləri M.Auezov və L.Sobolevin bədii materiala yanaşma metodunda biz həm də fərqli məqamlarla rastlaşa bilirik.

Əgər "Vaqif" dramı S.Vurğun tərəfindən romantik üslubda ortaya qoyulub nəzmlə tamaşaçılara və oxuculara çatdırılmışdırsa, "Abay" faciəsi realist sənətin bütün əksər keyfiyyətlərini özündə əks etdirməklə yazılmışdır. Bununla belə, Vaqif tarixi bir obraz kimi romantik cəhətləri ilə görünsə də, o, eyni zamanda həm də tarixi keyfiyyətləri ilə nəzərlərimizi cəlb etməkdədir. "Vaqif" dramında Vaqif xalq düşüncəsinin ifadəçisi, xalqın qəlbidirsə, "Abay" faciəsində də Abay eyni missiyanın daşıyıcısıdır. Buna görə də onların hər ikisi bu əsərlərdə panoramlı şəkildə ortaya çıxarılmışdır. Vurğunun əsəri Azərbaycanda XVIII əsrin sonlarında şah rejiminə qarşı gedən mübarizənin geniş mənzərəsini yaradırsa, M.Auezov və L.Sobolevin "Abay"ında Qazaxıstanda çar istismarçılarına, yerli feodallara, xanlara və bəylərə qarşı gedən azadlıq mübarizəsinin ümumi mənzərəsi ortaya çəkilmişdir. Yeri gəlmişkən bildirək ki, "Abay"la "Vaqif" arasında mövcud olan bəzi səsləşmələrə qazax tədqiqatçısı Saule Baişeva da diqqət çəkmişdir (1, c. 16 – 17).

Parallels in the Tragedy of M. Auezov and L. Sobolev "Abay" with the Drama of S. Vurgun "Vagif"

S.Baişeva hesab etmişdir ki, S.Vurğunun Vaqif obrazı Abaydan fərqli olaraq daha çox romantikləşdirilmişdir. Doğrudan da Vaqif obrazı elə yapılmışdır ki, onunçün Vətənin və xalqın taleyini öz içindən keçirib, onu daxilində yaşadan qəhrəmanın fərdiləşdirilməsi daha böyük əhəmiyyət kəsb etməli idi. Buna görə də S.Vurğunun baş qəhrəmanının həyatdakı cəsurluğu, döyüşkənliyi oxucunu və tamamşaçını daha çox narahat etməklə, ona emosional baxımdan olduqca güclü təsir etmək qüvvəsinə malik idi. Bununla belə, Vaqifin mənəvi axtarışları, onun xarakterinin fəlsəfi dərinliyi heç bir halda emosional təsiri aşağı salıb zəiflətmir, əksinə onu daha da gücləndirir (1, c. 19).

Hələ 1954-cü ildə rusiyalı tədqiqatçı Klara Burova "Səməd Vurğunun dramaturgiyası" mövzulu filologiya üzrə fəlsəfə doktorluğu dissertasiyasında qeyd etmişdir ki, Vurğun həmin dövrün (müəllif XVIII əsr Vaqif dövrünü nəzərdə tutur – N.T.) Vətənin azadlığı uyğunda mübarizənin xalqın həyatında mühüm əhəmiyyəti olduğunu duymuş və onu oxucuya uyğun çatdıra bilmişdir. Burada bütün qüvvələr hərəkətə gəlməklə, müxtəlif maraqlar toqquşur və bir-birinə qarşı dayanırlar. Belə situasiyalarda Vaqifin xarakteri daha dərindən açılır, onun istedadı aydın görünür, xalqla əlaqəsi daha sıx təsvir olunur (2, c. 81 – 82).

Tədqiqatçı daha sonra təhlillərinə davam edərək, həm də doğru olaraq qeyd edir ki, dramaturq böyük həyatın ayrı-ayrı qatlarını qaldırmaqla təsvir edilən mərhələnin tamamilə dərinliyinə varmağa müvəffəq ola bilmişdir. Bu baxımdan K.Burova Azərbaycan dramaturqunun ortaya qoyduğu nümunədə klassik rus ədəbiyyatının ən yaxşı ənənələrini "Boris Qodunov"dan, "Taras Bulba"dan, "Hərb və sülh"dən başlayaraq, ədəbiyyatın ən xeyirxah ənənələrinə bələd olmaqla öz xalqının əzəmətli işlərinin mənzərəsini yaratdığını vurğulamışdır (2, c. 87).

M.Auezov və L.Sobolevin "Abay" faciəsi və S.Vurğunun "Vaqif" dramı arasında göstərilmişlərdən başqa xeyli oxşar və fərqli məqamların üst-üstə düşdüyünü görmək və uyğun paralellərin ortaya çıxırılması da mümkündür. Gələcəkdə bu istiqamətdə təhlilləri davam etdirməklə yeni qənaətlərlə tədqiqatçı alimləri tanış etmək fikrindəyik.

**İstinadlar**

Баишева С. Проблема жанра и образа в трагедии «Абай» М.Ауэзова и Л.Соболева // Filol. elm. nam. Diss. avtoref. Alma-Ata, 1988, 25 c.
Бурова К. Драматургия Самеда Вургуна. Filol. elm. nam. diss. M., 1954, 233 c.
Вургун С. Великий сын своего народа. «Бакинский рабочий», 1938, 11 октября
Məmmədov Tağısoy N. Muxtar Auezovun yaradıcılığı: ənənədən novatorluğa. Bakı, "Şərq-Qərb", 2019, 216 s.